# Yurd yerlərimizdə ayaq izlərimiz qalıb

**Erməni separatçıları 1872-81-ci illərdə Türkiyədə gizli erməni təşkilatı, 1887-ci ildə "Hnçaq", 1890-cı ildə "Daşnaksütyun" partiyası yaratmışlar. Haylar "böyük Ermənistan" yaratmaq uğrunda Türkiyə və İrana qarşı müharibə aparan Rusiya hökumətinə müxtəlif yollarla köməklik edib, Türkiyənin məğlubiyyətinə çalışmışlar.**



1812-ci ildə Krımın ruslar tərəfindən zəbt edilməsinə fəal kömək edən ermənilər Rusiya hökuməti yanında özlərinə böyük etibar qazandılar. Rusiya hökuməti 1828-ci ildə İrandan 40 min, 1829-cu ildə Türkiyədən 90 min ermənini İrəvan və Naxçıvan xanlığı ərazisinə yerləşdirdi. 1853-1856, 1877-1978-ci illərdə İranla müharibələrdə də ermənilərə arxalandı.

Müsəlmanların bayram günü - yəni 20 mart 1828-ci ildə həmin xanlıqların ərazisi erməni vilayəti elan edildi. Halbuki, o vaxta qədər bu vilayətlərdə 114 kənddən ancaq 62-sində ermənilər yaşayırdı. Qəsdən olaraq dağıdılmış, əhalisi qırılmış 359 müsəlman kəndində ermənilər məskunlaşdırılmışdır. Bunun nəticəsidir ki, 1918-ci ildə bu ərazidə yaşayan əhalinin sayı ermənilər 775, azərbaycanlılar 575 min nəfər təşkil edirdi.

Ermənilər çoxaldıqları üçün Qərbi Azərbaycandakı müsəlmanları qırıb, qalanlarını da qovmağa başladılar. Soydaşlarımız İrana, Türkiyəyə qaçmalı oldular. 1905-ci ilin fevralında İrəvanda, Zəngəzurda müsəlman qırğınları baş verdi.

Müsəlmanların qırğınları ilə kifayətlənməyən ermənilər 1917-ci ilin may ayında Qarsda 35 min nəfərlik qoşun korpusu yaradaraq onları üç diviziyaya böldülər. 1917-ci ildə Türkiyə erməniləri Stepan Şaumyanı özlərinə başçı seçdi. Lenin isə 1917-ci ilin 29 dekabrında dekret qəbul edib erməniləri müsəlmanlardan müdafiə adı ilə qoşun hissələri təşkil etməyə şərait yaratdı. Şaumyanın göstərişi ilə yaradılan türkiyəli Hamazaspın komandanlığı altında olan diviziya bir çox yerlərdə, o cümlədən Qərbi Azərbaycanın Zəngəzur mahalında dəhşətli qırğınlar törətdi, 131 kənd tar-mar olundu. Kotayk-Qərni arasında olan Qırxbulaq deyilən zonada azərbaycanlılar amansızlıqla qətlə yetirildi.

Xalqımızın başına gətirilmiş faciələri əbədiləşdirmək üçün 1919-cu il mart ayının 31-ni Azərbaycan hökuməti matəm günü elan etdi.

Birinci Dünya müharibəsi Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən erməni vandalları öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən "əks-inqilabçı ünsürlərlə mübarizə" şüarı altında minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edildi. Ermənilər Qərbi azərbaycanlıların evlərinə od vurub, insanları diri-diri yandırdılar. Milli memarlıq incilərini, məktəbləri və digər abidələri dağıtdılar.

Zaqafqaziyanın sovetləşməsindən öz məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-nin ərazisi elan etdilər. Sonrakı dövrdə də bu ərazilərdən azərbaycanlıların deportasiya edilməsini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar.

Qərbi Azərbaycanın digər ərazilərində olduğu kimi, Zəngibasar mahalında da 1918-1920-ci illərdə ermənilər qırğınlar törətmiş, yeri əhali olan azərbaycanlılara işgəncə vermiş və onları sıxışdırmışlar. Rayonun adı ayrı-ayrı illərdə ermənilər tərəfindən dəyişdirilmiş, son adı Masis olmuşdur. Rayon İrəvan şəhərindən 20 kilometr məsafədə, İrəvan-Naxçıvan-Bakı dəmiryol xəttinin üstündə, Zəngi çayının sol sahilində yerləşir.

Ayrı-ayrı illərdə Zəngibasar (Uluxanlı) rayonundakı Aşağı Necili, Böyük Şorlu, Bulaqlı, Cəfərabad, Həbibkənd, Qaraqışlar, Təzəkənd, Uluxanlı, Yengicə, Yuxarı Necili və digər kəndlərin adları ermənilər tərəfindən dəyişdirilmişdi. Bu da müsəlman əhalisi tərəfindən etirazla qarşılanmışdır.

Azərbaycanlılar həmişə olduğu kimi, 1948-1953-cü illərdə yenə də erməni millətçilərinin xəyanəti ilə üzləşmiş, xaricdən gələn erməniləri yerləşdirmək adı altında Qərbi Azərbaycanın rayonlarından "könüllülük" prinsipi əsasında 150 min soydaşımız doğma torpaqlarından deportasiya olunmuşdur.

1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Sovetinin sessiyası keçirilməli və bu sessiya Azərbaycan SSR Ali Sovetindən Dağlıq Qarabağın Ermənistanın tərkibinə keçirilməsi barədə "xahiş" etməli idi. Artıq səbri tükənmiş azərbaycanlılar arasında böyük narazılıqlar başlandı. Həmin gün Göyçə mahalında ermənilərin son dərəcə yaramaz hərəkətlərinə qarşı etiraz səsləri qaldırıldı. Soydaşlarımız əllərində bel-külünglə mitinqlərə çıxaraq rayon mərkəzinə doğru irəlilədilər. Mitinqlərdə Basarkeçər və Çəmbərək rayonlarından iyirmi min əhali iştirak edirdi. Azərbaycanlılar bir çox tələblər irəli sürür, Göyçə mahalına muxtariyyət tələb edirdilər. İyirmi mindən artıq adamı birləşdirən bu nümayişlərin etiraz dalğası Ermənistanı lərzəyə gətirdi. Sessiyanın gedişi vaxtı nümayişlər keçirilən məntəqələrə dərhal hökumət adamları göndərildi. Ermənilər yalançı vədlər verməklə çox çətinliklə mitinqləri dayandırdılar…

Nəhayət, 1988-ci ildə "əzabkeş" ermənilər yenidənqurmanın qanadları altına sığınaraq Azərbaycan xalqına qarşı mənfur daşnak siyasətinin ən qəddar variantını həyata keçirildilər. Ermənistandakı azərbaycanlılar çox böyük amansızlıqla üzləşdi. Qərbi azərbaycanlılar sonuncu nəfərə qədər yüz illər yaşadıqları yerləri zülmlə tərk etdilər.

Uzun illərdi ki, biz hər qarışında ayaq izlərimiz qalan qədim yurd yerlərindən ayrı düşmüşük. Daim itirilmiş torpaqlarımızı düşünük…

**Allahverən ƏHMƏDOV,**
**Şamaxı rayon sakini, təqaüdçü.**

Respublika .- 2025.- 3 iyul (№ 133).- S.11.